# Liman şəhərində şəhid bulağı açılıb





***Torpaqlarımızın işğaldan azad olunması ilə başa çatmış 44 günlük Vətən müharibəsi rəşadətli Azərbaycan Ordusunun şanlı döyüş salnaməsinin ən parlaq səhifəsinə çevrilib. Bu şərəfli səhifəni cəsur oğullarımız qanları ilə, canları ilə yazıblar.***

Onlardan biri də Lənkəran rayonunun Liman şəhər sakini Kamran Ceyhun oğlu Səmədov olub. Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərə könüllü olaraq qatılmış minlərlə vətənpərvər gənclərdən biri olan Ceyhun Səmədov döyüşlər zamanı yüksək qəhrəmanlıq göstərərək düşmənə sarsıdıcı zərbələr vurub. Lakin döyüşlərin birində Ceyhun Səmədov qəhrəmancasına həlak olub şəhidlik zirvəsinə yüksəlir. Komandanlıq onun döyüş xidmətlərini yüksək qiymətləndirib. Lənkəranın digər şəhidləri kimi  Ceyhun Səmədovun da xatirəsi unudulmur, daim əziz tutulur.

Oktyabın 31-də şəhidin anım günündə Liman şəhərində onun adına tikilmiş bulağın açılışı olub. Açılış mərasimində Lənkəran ŞİH başçısı Taleh Qaraşov, icra aparatının rəsmiləri, şəhid ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edən icra başçısı Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbənin tarixi əhəmiyyətindən geniş danışaraq bu qələbənin məhz qəhrəman oğulların şücaəti və şəhidlərin qanı sayəsində qazanıldığını diqqətə çatdırıb.

Şəhidin atası çıxış edib oğlunun qəhrəmanlığından qürur duyduğunu bildirərək, övladının əziz xatirəsinin ədədiləşdirilməsi ilə bağlı görülən işlərə, ailəyə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını çatdırıb. Digər natiqlər də çıxışlarında 44 günlük Vətən müharibəsində qəhrəmancasına vuruşaraq həlak olan şəhidlərə sonsuz hörmət və ehtiramlarını ifadə ediblər.

Tədbirin sonunda məktəblilərin ifasında şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib. Həmin gün şəhidin il mərasimi də keçirilib. Bu münasibətlə şəhidin qəbri ziyarət olunaraq üzərinə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti .- 2021.- 2 noyabr.- S.14.